# Prezident seçkiləri demokratik islahatlar prosesinə sadiqliyi nümayiş etdirmək üçün önəmli fürsətdir

BAKI, 30 İYUL 2008 - ATƏT Sədrinin Xüsusi Elçisi Səfir Heikki Talvitie qarşıdan gələn prezident seçkilərini beynəlxalq standartlara uyğun keçirmək üçün lazımi şəraitin yaradılacağına dair Azərbaycan hakimiyyətinin bəyanatını müsbət qarşılayır. O, Azərbaycana iki günlük səfərinin sonunda bəyan edib ki, “15 oktyabr prezident seçkiləri demokratik islahatlar prosesinə sadiqliyini nümayiş etdirmək üçün Azərbaycana önəmli fürsət verir”. Talvitie seçki təşkilatçılarını ictimaiyyətin seçki prosesinə etimadını artırmaq üçün lazımi tədbirlər görməyə, o cümlədən bütün namizədlər üçün mətbuatda bərabər imkanlar yaratmağa, vətəndaşların ifadə və toplaşma azadlığını təmin etməyə çağırdı.

Talvitie bildirdi ki, “ATƏT-in Finlandiyalı Sədrliyi ATƏT-in Bakı Ofisi və onun rəhbəri Səfir Xose Luis Herreronun işini dəstəkləyir. O, toplaşma azadlığının tam yerinə yetirilməsi, mətbuatda bütün namizədlər üçün bərabər imkanların təmin olunması, eləcə də səlahiyyəti olmayan şəxslərin seçki prosesinə müdaxiləsinin qarşısının alınması istiqamətində Ofisin təşəbbüslərini xüsusi qeyd edib.

Azərbaycan hakimiyyəti Talvitieni əmin edib ki, qarşıdan gələn prezident seçkilərini müşahidə etmək üçün ATƏT-in Seçkilər üzrə Müşahidə Missiyasına dəvət göndəriləcək. ATƏT-in Demokratik Təsisatlar və İnsan Hüquqları İdarəsi ATƏT-ə üzv olan dövlətlərdən sentyabrın əvvəlində Azərbaycana 30 uzunmüddətli müşahidəçinin göndərilməsini xahiş edib. Bundan əlavə, 450 qısamüddətli müşahidəçi seçki gününü müşahidə etmək üçün Azərbaycana göndəriləcək.

Dağlıq Qarabağ münaqişəsinin həlli prosesinin müzakirəsi zamanı Talvitie vurğulayıb ki, ATƏT-in Finlandiyalı Sədrliyi Minsk Qrupu Həmsədrləri və Fəaliyyətdə olan Sədrin Şəxsi Nümayəndəsi Səfir Anjey Kasprşikin işini dəstəkləyir.
DaDavisits Azerbaijan ahead of the forthcoming Presidential election

I welcome the authorities’ stated determination to put in place conditions that would enable the upcoming election to be held as close to international standards as possible,” he said.

“Mən Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllinə dair əsas prinsiplərin bazasında danışıqların davam etdirilməsi üçün hər iki tərəfin nümayiş etdirdiyi niyyəti müsbət qarşılayıram. ATƏT-in Minsk Qrupunun təşkilatçılığı ilə Azərbaycan və Ermənistanın Xarici İşlər Nazirlərinin avqustun 1-də Moskvada keçirəcəyi görüş mövqelərinin müzakirəsi üçün daha bir imkan yaradacaq”

İki günlük səfər zamanı Talvitie Azərbaycan Prezidenti İlham Əliyev, Xarici İşlər Naziri Elmar Məmmədyarov və Mərkəzi Seçki Komissiyasının Sədri Məzahir Pənahovla görüşüb. O, həmçinin siyasi partiya, mətbuat və diplomatik korpusun nümayəndələri ilə müzakirələr aparıb.